концертмейстера – донести до слушателей красоту и эмоциональность музыкального исполнения.

В данной статье проанализированы исторические этапы и основные особенности формирования и развития концертмейстерского мастерства, изучены суть и значение навыков и их использование в концертмейстерской практике. Профессия концертмейстера заслуженно завоевала широкую любовь и признание в профессиональной деятельности пианистов.

## THE ESSENCE AND IMPORTANCE OF CONCERTMASTERS' SKILLS

***Haqverdiyeva Nargiz Ali***

***Summary***

The art of accompaniment plays an important role in the system of music education. Among the professional pianists the profession of accompanist is considered one of the main and important. The main goal of the concertmaster is to convey to the audience the beauty and emotionality of music performance.

The article analyzes the stages, essence, importance and main features of the development of accompanist skills, studied the areas of use of accompanist practice. The profession of an accompanist deservedly won wide love and recognition in the professional activity of pianists.

***Rəyçi: baş müəlllim Hacıyeva M.***

***GDU-nun "Musiqi fənləri" kafedrasının 26 sentyabr 2022-ci il tarixli içlasın 02 saylı protokolu***

***Daxil olma tarixi 12 oktyabr 2022-ci il***

**UOT:78.**

## QARA QARAYEVİN FORTEOİANO YARADICILIĞINDA UŞAQ MUSİQİSİNİN YERİ

***Məmmədova Qəsirə Tofiq qızı***
***Gəncə Dövlət Universiteti***
[qasira.mammedova@gmail.com](mailto:qasira.mammedova@gmail.com)

**Xülasə:** *Azərbaycan bəstəkarlarının fortepiano üçün uşaq musiqisi musiqi tarixinin inkişafında mühüm yer tutur. Uşaq fortepiano musiqisinin inkişafında Azərbaycanı dünyaya tanıdan milli bəstəkarlıq məktəbinin görkəmli nümayəndələrindən biri olan Qara Qarayevin xüsusi yeri var. Bəstəkarın uşaq fortepiano musiqisi onun yaradıcılığında aparıcı janrlardan biridir.*

*Məqalədə Q.Qarayevin uşaq fortepiano üçün "6 uşaq pyesi","6 orta çətinlikli pyes" nəzərdən kecirilmiş və səciyyəvi xüsusiyyətləri təhlil edilmişdir. Pyeslərdə məqam-intonasiya xüsusiyyətlərinin təhlili verilmiş, onların rəngarəng obrazlı olması və məzmunun açılmasında musiqi dilinin ifadə vasitələri ilə necə xarakterizə edilməsi göstərilmişdir.*

**Açar sözlər:** Qara Qarayev, bəstəkar, fortepiano musiqisi, uşaq musiqisi , fortepiano pyesləri

**Ключевые слова:** Кара Караев, композитор, фортепианная музыка, детская музыка, фортепианные пьесы

**Key words:** Kara Karayev, composer, fortepiano music, children's music, piano strings

Uşaq fortepiano pyesləri, albomları, silsilələri klassik dünya musiqisində əhəmiyyətli yer tutur. Qeyd etmək lazımdır ki, uşaq musiqisi bir çox görkəmli bəstəkarların yaradıcılığında xüsusi yer tutur. İ.S.Bax (1685-1750), L.V.Bethoven (1770-1827), R.Şuman (1810-1856), P.İ.Çaykovski (1840-1893), K.Debüssi (1862-1918) kimi dahi bəstəkarlar uşaqlar üçün əbədiyaşar musiqi əsərləri yazmışlar. Uşaqların həyatından bəhs edən hadisələri, uşaq oyunlarının xüsusiyyətləri vasitəsilə çatdırmaqla xüsusi bir şəkildə təqdim edərək bəstəkarlar uşaqlar üçün pyeslər yazırdılar. Uşaq fortepiano musiqisinin mövzusu genişdir – uşaq həyatında baş verən hadisələr, oyunlar, təbiət, emosional-psixoloji vəziyyətlər, insan portretləri, nağıllar, folklor, müasir dünyanın əks edilməsi və s. Bu kimi fortepiano pyesləri ilk addımlarını atan kiçikyaşlı musiqiçilər üçün zəngin tədris vəsaitidir.

XX əsrin 20-30-cu illərindən başlayaraq, Azərbaycanda uşaq fortepiano musiqisinin inkişafına maraq artır. Azərbaycanda ilk dəfə uşaq həyatı ilə bağlı mövzuları Asəf Zeynallı (1909-1932) öz "Uşaq süitası" nda əks etdirir. Ondan sonra uşaq musiqi yaradıcılığına müraciət edən bəstəkarlarımız üçün A.Zeynallının əsəri nümunə olmuşdur. Bu işdə xüsusi xidmətləri olan Azərbaycan klassiklərinin–Q.Qarayevin "Altı uşaq pyesi" (1950) və "Altı orta cətinlikli pyesi" (1965), "Qəmli hekayə" (1969), "Anadan olma gününə marş" (1979), "Fil və Alabaş" (1979), "F.Əmirovun "12 miniatür" (1954) və "Uşaq lövhələri" (1957), V.Adıgozəlovun uşaqlar ücün "Pyeslər" (1959), "24 uşaq pyesi" (1961), M.Mirzəyevin "Gənclik albomu" (1960), T.Quliyevin "Cəmilənin albomu" (1984) və s. uşaqlar ücün yazılmış fortepiano musiqisinin nümunələri tədris ədəbiyyatının əsasını təşkil edir.

Bu baxımdan Q.Qarayevin (1918-1982) yaradıcılığında mühüm yeri olan uşaq musiqisinin tədqiqi tədris prosesində geniş şəkildə təqiq olunmaqdadır. Q.Qarayevin "Altı uşaq pyesi" fortepiano musiqisi həm bədii, həm də pedaqoji baxımdan dəyərli musiqi nümunəsidir. Səciyyəvi musiqi obrazlarının dəqiq şəkildə təqdim edilməsi pyeslərin uşaqlar tərəfindən qavranılması ücün çox maraqlıdır. Hər bir pyes özündə müəyyən pedaqoji funksionallıq daşıyır. Qeyd etmək lazımdır ki, bütün əsərlərində olduğu kimi uşaq pyeslərində də bəstəkarın musiqi dili olduqca özünəməxsusdur və öz dəst-xətti ilə seçilir. "Qara Qarayevin pyesləri öz təbiəti etibarı ilə melodik xaraktrli olub, uşağın fortepiano fakturasının sirlərini tədricən öyrınmısinə xidmət edir. Burada Çaykovskinin musiqi obrazı üzərindəki iş təcrübəsi, Baxın polifonik musiqisinin əsasları, Prokofyevin müasir dissonans səslənməsi öz əksini tapmışdır. Ən əsas xüsusiyyət isə musiqinin milli koloritidir. Q.Qarayevin pyesləri qeyri-adi dərəcədə dinamik və parlaqdır" [4, s. 168-173].

Q.Qarayevin "Altı uşaq pyesi" məhz uşaqların ifası üçün nəzərdə tutulmuşdur. Əsərin əhəmiyyəti də elə bundadır ki, uşaqlar üçün pyeslər silsiləsi Azərbaycanda uşaq musiqisi ədəbiyyatını və uşaq musiqi məktəblərinin tədris repertuarını zənginləşdirməklə yanaşı, uşaqların musiqi qavrayışının, musiqi təxəyyülünün və ifa texnikasının formalaşmasında mühüm rol oynayır.

Məhz bu silsilənin uşaqlar tərəfindən ifasını nəzərdə tutan bəstəkar pyesləri uşaqların qavraya və ifa edə biləcəyi səviyyədə, sadə faktura, üslub və formada bəstələmiş, mümkün qədər mürəkkəb səs birləşmələrindən, melodik inkişafdan, akkordlardan, harmonik və polifonik üsullardan istifadə etmişdir. Uşaq həyatını və psixologiyasını əks etdirən bu pyeslərin hər biri proqramlı musiqidir. Ayrı-ayrılqda hər bir pyes uşaq düşüncəsinə xas olan fərqli bədii obrazlara malikdir. Bu fortepiano miniatürlərində bəstəkar sadə ifadə vasitələrilə uşaq həyatının səhnələrini təsvir etmişdir. Bu obrazlar müəllif tərəfindən uşaqların bədii

zövqün qəbul edə bildiyi tərzdə, sadə melodiya, faktura, harmoniya ilə yaradılmışdır. Digər tərəfdən, 6 pyes bir-birilə obraz, ifadə əlaqəsinə malik olub, silsilənin quruluşunu təşkil edir. “Q.Qarayevin fortepiano pyesləri öz təbiəti etibarilə melodik xarakterli olub, kiçik yaşlı ifaçının sirlərini tədricən öyrənməsinə xidmət edir. Bəstəkar sırf texniki çərçivəni genişləndirərək, pianoçunun pyesdə təcəssüm olunan kiçik bədii obraz üzərində düşünməyə çağırır. İfadə tərzinin sadəliyinə baxmayaraq, Q.Qarayevin uşaq pyesləri kiçik musiqiçinin dünyagörüşünü inkişaf etdirən intelektual patensiala malikdir və ona müəyyən mənəvi keyfiyyətlər aşılayır” [1, s. 116].

“Kicik vals”, “Fırfıra”, “Oyun”, “Şən əhvalat” - məişət pyesləri olub, uşaqların daxili aləmini əks etdirir. “Düşüncə”, “Hekayə” pyesləri ilə uşaq psixologiyasını incəliklə ifadə edərək nəzərə catdırılır.“Altı uşaq pyesi” silsiləsinin hər bir pyesində bəstəkar kiçikyaşlı uşaqlarda müəyyən ifaçılıq bacarığının inkişafını nəzərdə tutur. Bəstəkar altı pyesdə milli lad xüsusiyyətlərini geniş tətbiq edərək , onları özünə xas olan, dərin fərdi üslubu ilə növbələşdirir – məsələn, bəstəkarın yaradıcılığı ücün səciyyəvi olan polifonik musiqini qeyd etmək olar. Musiqi tədqiqatşısı professor T.Seyidovun yazdığı kimi: “Bəstəkar altı pyesdə milli lad xüsusiyyətlərini geniş tətbiq edərək, onları özünə xas olan, dərin individual üslubu ilə növbələşdirir-məsələn, bəstəkarın yaradıcılığı üçün səciyyəvi olan harmonik polifuksionallığı qeyd etmək olar” [5, s. 115] .

“Kicik vals” (c-moll) adlı ilk pyesin ifası ifaçıdan musiqi təfəkkürün yetişmsini tələb edir. “Düşüncə” pyesində isə polifoniklik daha qabarıq ifadə olunmuşdur. Əgər birinci pyesdə faktura ücsəsliliyə qədər mürəkkəbləşirsə, bu zaman ikinci pyes dördsəsli şəkildə ifadə olunmuşdur. Bu pyesləri bir - birinə həm də ümumi janr yaxınlaşdırır. Yalnız fərq ondadır ki, “Düşüncə” adlı pyesdə valsvarilik gizli tərzdədir və bu, xanənin güclü təqtisində dayaq nöqtələrinin olmaması ilə bağlıdır.

İkinci pyes “Fırfıra” (a-mol) etüd xarakterlidir. Faktura etibarilə o, Qarayevin I dəftər, 1 № li C-dur prelüdünə yaxındır. Öz obrazlı məzmununa görə bu pyes fırlanan fırfıranın musiqi təsviridir. Bu cür effekt dörd onaltılıqlardan təşkil olunmuş eyni bir fiqurasiyalı - ritmik şəklin coxsaylı təkrar olunma üsulu ilə əldə olunur. Bu ifacılıq üsulu həm də vacib metodik faktordur. İnstruktiv baxımdan bu pyesin ifası zamanı əllərin eyni pozisiyada hərəkətlərin oynaq texnikasını inkişaf etdirir.

Üçüncü pyes “Fikirli” (d-moll) çox sakit tərzdə “andatino” tempində təqdim olunur. Bəstəkar buraada kiçik yaşlı musiqiçilıri sanki polifonik musiqini duymağa, hiss etməyə və fortepianoda ifa etməyə hazirlayır. Hər bir xanən sonu üçsəsin birlikdə ifası ilə bitir. Bu isə pyesin məzmununun, uşağın dərin xəyal dünyasının məzmununu açır. “Fırfıra”da olduğu kimi, “Oyun” da da eyni bir ifacılıq üsulu təkrar olunur. Bundan başqa, sol əlin ifası ilə başlayaraq güçlü təqtiləri vurğulamaq olduqca vacibdir ki, bu da pyesin ümumilikdə qavranılmasını asanlaşdırır.

“Oyun” (C-dur) adlanan dördüncü pyes tarantella tərzlidir. Pyesin quruluş üslubu klavesinistlərin (məsələn, D.Skarlatti) üslubunun ifasına olduqca yaxındır: mülayim, zərif və şəffafdır. Bu pyeslə ilk tanışlıq zamanı və xüsusilə onun üzərində gedən növbəti iş zamanı müəyyən cətinliklər meydana cıxır. Urəyində pyesin xəyalən ritmik və melodik cizgilərinə gorə bir-birinə bənzər olan motivlərini iki, uc, dörd xanəyə, iki dörd xanəyə və s. ayırmaqla bu cətinlikləri dəfet mək mümkündur. Aydın ifadəsini tapmış periodiklik, onun yeknəsəqliyi “Fırfıra”nı xatırladır. Yalnız fərq ondadır ki, birinci pyes də iki xanə məhdudiyyəti müşahidə olunur, bu pyesdə isə ritmik quruliş daha mürəkkəbdir.

Beşinci “Hekayə” (f-moll) fortepiano pyesində uşaq düşüncəsinin sanki “zümzümə etmək” kimi ön plana çəkilməsi aydın görünür. O, ballada ruhlu olub rəvayətedici

xarakterdədir və sanki gizli bir hadisə haqqında həyəcanlı etiraf kimi səslənir. "Bayatı-Şiraz" ladının intonasiyaları üzərində qurulan mövzu, on bir xanə boyu ümumi liqa ilə birləşdirilmişdir ki, bu ona elə həmin bəstəkarın lya minor sonatinasının ikinci hissəsindəki rəvan melodiyanı xatırladan "uzun" lirik mövzu xüsusiyyəti bəxş edir. Buna baxmayaraq, melodiya bir sıra qısa motivlərə ayrılır ki, bu da musiqiyə bir qədər təlaş, həyacan gətirir. Təbii ki, şagird qarşısında pyesin xarakterinin ayrılmaz hissəsi olan "qısa" nəfəsi dəf etmək məsələsi durur. Bununla yanaşı, mövzunun ikinci kecidi zamanı, mövzu aşağı registrində səslənkən, əllərin "çarpazlaşması" üsulu ilə əlaqədar, əlavə çətinliklər meydana gəlir. Beləliklə, müəllif kompozisiyanı tədricən mürəkkəbləşmə üsulu üzərində qurur. Rəvanlığa nail olmaq, təbii, sərbəst ifaya yiyələnmək də xeyli güc tələb edəcək – burada ritmik şəklin şıltaqlığını (sinkopalar, triollar, uzun və qısa ritmlərin növbələşməsi), eləcə də xromatikləşmiş melodik xətti eyni vaxtda ifa etmək lazımdır.

Sonuncu "Şən əhvalat" (D-dur) pyesi silsilədə daha mürəkkəb pyesdir, belə ki, öz daxilində təzadlı musiqi mətnini cəm edir. "Şən əhvalat"ın musiqi mətni yumorlu, həyat coşqunluğu ilə nur sacır. O, qızğın, xəfif, çevik xarakteri ilə fərqlənir və özündə mahnıvari və rəqsvari cizgiləri cəmləşdirir. Bu xarakter öz ifadəsini hələ iki epizodlu rondo mövzusunun başlanğıcından götürür. Birinci epizod refrenlə (təkrarla) nəzərə carpacaq dərəcədə təzadlılıq təşkil edir. Əgər refrendə başlanğıc intonasiyasının müxtəlif lad variantlarında təkrarı rol oynayırdısa, bu zaman epizodda sekvensiyalı inkişaf üstünlük təşkil edir. İkinci epizod daha böyük və əhəmiyyətli tərzdə təqdim edilir. Burada mövzuya janr (marş) cizgiləri əlavə olunur. Bu mövzu ücün xanənin güclü və zəif hissələrinin aksentlə göstərilməsi səciyyəvidir. Pyes sona çatır, onunla birgə Qarayev tərəfindən ən cox sevilən qısa kadensiyalı harmonik funksiyaların qarşılaşdırılması ilə zarafatyana silsilə də bitir. Umumiyyətlə, pyes möhkəm stakkato və ritmik təmkinliliyin təkmilləşdirilməsinə kömək edir.

Qeyd etmək lazımdır ki, Q.Qarayev pyeslərində "Bayatı-Şiraz" məqamına üstünlük verir, eyni zamanda, "Rast", "Segah" məqamlarına da rast gəlinir ki, bu da çox zaman əsərin xarakteri ilə bağlı olur. Pyeslərdə məqamlar arası keçidlər də özünü göstərir və əhval-ruhiyyənin dəyişməsinə işarə edilir: "O, xalq musiqisindən sitat kimi istifadə etməyi də sevmirdi, xalq musiqisinə yaradıcılıqla yanaşırdı. Bu onun xalq musiqisinin incilərindən, xüsusilə qədim musiqidən necə məharətlə istifadə etdiyini görərik." [2, s. 29].

Məlum olduğu kimi, ilk addımını atan musiqicilər üçün "Altı uşaq pyesi" nin məntiqi davamı olaraq Q.Qarayev "Orta cətinlikli altı pyesi" bəstələmişdir. Özündən əvvəlki silsilə kimi, bu silsilə də ki, pyeslərində adı təbiət ilə bağlıdır.

"Yağış yağır" (C-dur) adlı birinci pyesdə yağış damcılarını duymaq mümkündür. Müəllif damcı tıqqıltısı effektini gücləndirərək, buna melodik xətlərdəki ayrı-ayrı səslərin müxtəlif əllər vasitəsilə otürülməsi ilə nail olur.

İkinci pyes "Kicik hekayə" (a-moll) iki mövzu üzərində qurulmuş balaca fuqatodur. Demək olar ki, bütün səs istiqamətləri mümkün olduğu qədər saxlanılır ki, bu da pyesin səslənməsini Qarayevi cox cəlb edən qədim polifonik formalara yaxınlaşdırır.

Üçüncü "Dağlarda" pyesini qədim polifoniyaya aid nümunələrdən biri kimi nəzərdən kecirmək olar. Lakin burada sona qədər saxlanılan "basso ostinato" (italyanca- davamlı bas) prinsipi pyesin əsas bünövrəni təşkil edir.

Dördüncü "Qarışıq fikir" (a-moll) adlı pyes eyni bərabərliklə təkrar olunan, tez-tez öz yüksəkliyini dəyişən çərəklər fonunda harmonik müşayiətdəki ostinato formalarını cəm edir. Melodiyada isə eyni bir musiqi frazası saxlanılmaqla, üst səsdə uzanan oktavalar bəzəyir. Bu pyesi "ideya fix" in (köhnə fikir) musiqi ifadəsi kimi müəyyən etmək olar.

Beşinci pyes “Unudulmuş vals” (gis-moll) XIX əsrə aid olan janrın klassik nümunəsi ruhunda təqdim edilmişdir. Özundən əvvəlki üc pyesdə olduğu kimi, Qarayev bu pyesdə də neoklassisizmin, qədim və klassik forma və janrların sadiq ardıcılı kimi cıxış edir.

“Xəzri əsir” (C-dur) adlanan silsilənin sonuncu pyesi faktura cəhətdən etüdü xatırladaraq, müxtəlif səpgili texniki passajların ifası ilə təqdim edilib. Obrazlı məzmun nöqteyi-nəzərdən müəllif şimal küləyinin sürət və gücünə görə fəzada daim dəyişən, gah yaxınlaşan, gah da uzaqlaşan cırpıntıları təsvir edir. Silsilənin pedaqoji dəyəri çox yüksəkdir, uşaqlara həm texniki bacarığı inkişaf etdirməyə imkan verir, həm də müxtəlif növ polifonik üsullarla işləmək qabiliyyətini üzə cıxarır. “Q.Qarayev fortepianonun imkanlarından, obraz məzmunu ilə sıx bağlı ən müxtəlif faktura üsullarından ifadəli istifadə edir. Çox vaxt bu və ya digər ifadə üsulu bütün pyesin surətini müəyyənləşdirir” [3, s. 221].

Beləliklə, hər bir fortepiano ifaçısı Azərbaycan bəstəkarlarının o cümlədən, Q.Qarayevin yaradıcılığını, eyni zamanda fortepiano uşaq musuqisi ilə tanış olmalıdır. Çünki o, insanı zənginləşdirir, həyatın fəlsəfəsini dərk etməyi öyrədir.

### *Ədəbiyyat*

1.Azərbaycan musiqi tarixi. 5 cilddə. 3-cü cild. (red. Z.Səfərova), Bakı, Elm, 2018, 752 s.
2.Həsənova C. Musiqi həyatımız. Məqalələr. Bakı, Elm və təhsil, 2021, 544s.
3.Qasımova S., İmanova Ü., Abdullayeva Z. Azərbaycan musiqi ədəbiyyatı. Elm və Təhsil, Bakı, 2017, 488 s.
4.Sayutkin Y. Q.Qarayevin pedaqoji prinsipləri. “Musiqi dünyası” jurnalı, №1-2/15, 2003.
5. Seyidov. XX əsrin Azərbaycan fortepiano mədəniyyəti: pedaqogika . ifaçılıq və bəstəkarlıq yaradıcılığı. Bakı, Təhsil, 2016, 336 s

**Notoqrafiya**

1. Q.Qarayev. Fortepiano əsərləri. Bakı, İşıq, 1979, 92 s.
2. К.Караев. Избранные пьесы. Москва, Советский композитор, 1988, 48 с.

## МЕСТО ДЕТСКОЙ МУЗЫКИ В ТВОРЧЕСТВЕ КАРА КАРАЕВА

***Мамедова Гасира Тофик кызы***

***Резюме***

Детская музыка Азербайджанских композиторов для фортепиано занимает важное место в развитии истории музыки. Особое место в развитии детской фортепианной музыки занимает Кара Караев, один из выдающихся представителей национальной композиторской школы, прославивший Азербайджан во всем мире. Детская фортепианная музыка композитора является одним из ведущих жанров в его творчестве.

В статье рассмотрены «6 детских пьес» и «6 пьес средней сложности» для фортепиано и проанализированы их характерные особенности. Анализируются особенности лада и интонаций в пьесах, показывается их красочная образность и дается характеристика выразительности музыкального языка фортепианных пьес.

## THE PLACE OF CHILDREN'S MUSIC IN THE WORKS OF KARA KARAYEV

***Mammeadova Qasira Tofiq***

***Summary***

Children's music for piano by Azerbaijani composers occupies an important place in the development of music history. Kara Karayev, one of the outstanding representatives of the

national composition school that introduced Azerbaijan to the world, has a special place in the development of children's piano music. The composer's children's piano music is one of the leading genres in his work.

In the article, K.Karayev's "6 children's plays" and "6 medium difficulty plays" for children's piano were reviewed and their characteristic features were analyzed. The analysis of the features of the moment-intonation in the plays is given, their colorful imagery and how to characterize the musical language with means of expression in the opening of the content is shown.

***Rəyçi: baş müəllim Məmmədova R.***
***GDU-nun "Musiqi fənləri" kafedrasının 26 sentyabr 2022-ci il tarixli iclasın 02 saylı protokolu***
***Daxil olma tarixi 12 oktyabr 2022-ci il***

**UOT:781.**

# MƏKTƏBLİLƏRİN MUSİQİ TƏRBİYƏSİNDƏ "ŞÜŞTƏR" MUĞAMINDAN İSTİFADƏNİN İMKAN VƏ YOLLARI

***Məmmədova Rəşidə Hamlet qızı***
***Gəncə Dövlət Universiteti***
*rashida.mamedova.68@mail.ru*

**Xülasə:** *Muğam kamilliyə gedən yolun başlanğıcıdır, həyatı, kainatı dərk etmək üçün Allah tərəfindən insanlara verilmiş nemətdir.*

*Muğamlar Azərbaycan xalq musiqisinin digər janrlarından əsaslı şəkildə fərqləndiyi üçün məktəblilərin musiqi qabiliyyətinin, mənəvi zənginliyinin inkişafına təsir imkanları da spesifik xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlərin əsas mahiyyətini açmaq, pedaqoji istiqamətlərini daha aydın şəkildə nəzərə çatdırmaq çox mühüm vəzifələrdən sayılır.*

*"Şüştər" muğamının məktəblilərin milli estetik şüurunun formalaşmasında, klassik milli dəyərlərin təkrarolunmaz gözəlliyini nümayiş etdirmək yönəmində böyük tərbiyəvi əhəmiyyəti vardır.*

**Açar sözlər:** musiqi, bəstəkar ,muğam, məktəbli, Şüştər
**Ключевые слова:** музыка, композитор, мугам, ученик, Шуштер
**Key words:** music, composer, mugham, shcoolchildren, Shushtar

Muğam əcdadlarımızın yaşadığı qədim dövrdən xəbər verən, uzaq və yaxın keçmişimizi özündə əks etdirən bu günümüzlə səsləşən və gələcəyə cəsarətlə addımlayan musiqi janrıdır.

Azərbaycan musiqisinin bütün şərqdə böyük şöhrət qazandığını qeyd edən orta əsr mütəfəkkirlər, şairlər və musiqişünas alimlərimizdən: Bəhmənyar (XI əsr), Qətran Təbrizi (XI), Nəsirəddin Tusi (XII), Nizami Gəncəvi (XII), Xaqani Şirvani (XII), Səfiəddin Urmavi (XIII), Əbdülqadir Marağai (XIV), Mir Möhsün Nəvvab (XIX) musiqi, musiqi alətlərimiz ilə yanaşı muğam haqqında söylədikləri elmi- fəlsəfi fikirlər çox zəngindir.

Professor Sevda Qurbanəliyeva yazır: "Azərbaycan muğamı əsrlərlə cilalanmış, böyük təkamül və inkişaf yolu keçərək çağdaş günlərimizədək gəlib çatmışdır. Muğam təkcə uzaq keçmişin abidəsi deyil, o müasir həyatımızın da ayrılmaz hissəsidir" [ 6.11].
Muğam bu gün milli Azərbaycan təfəkkürlü insanlar formalaşdırmaq üçün ən yaxşı vasitədir.